# Kür qırağının seyrəngahı... Yevlaxdadır

***Bəzi həmkarlarım mənə irad tuturlar ki, bölgə müxbiri kimi fəaliyyət göstərdiyin rayonlar haqqında yazanda şairləri, şeirləri tez-tez yada salırsan. Doğru deyirlər, amma mən də haqlıyam. Məsələn, indi Yevlax haqqında yazarkən Molla Pənah Vaqifin məhz burada – Kür qırağında, Qarabağ xanı ilə ova getdiyi zaman yazdığı “Hayıf ki, yoxdur...” şeirini necə xatırlamayasan? Axı bu gün həmin “hayıf” sözünə qətiyyən ehtiyac qalmayıb.***



Yaxud, Yevlaxa gedəndə fikirləşirdim ki, bu şəhər haqqında məlumat verən ilk yazılı mənbə XII əsrə aiddir. Həmin əsrin adı çəkiləndə isə yada düşən ilk adlar Nizami və Məhsəti Gəncəvilər olur. Üstəlik, Yevlax haqqında bölgə müxbiri kimi qələmə aldığım ilk yazı da “Nizami ili”nə təsadüf edir. Yeri gəlmişkən, Yevlaxın əsas və ən böyük prospekti də Nizaminin adınadır. Eləcə də, bu şəhər haqqında olan ən yaxşı yazılardan birinin – “Kürün sağ sahilində” oçerkinin müəllifi də rəhmətlik dostumuz, şair Şəmşad Rza idi.

Yevlaxın sosial-iqtisadi inkişafına və zamanın tələblərinə cavab verən göstəricilərinə gəlincə isə, o barədə daha ürəklə söz aça bilərik. Çünki bu gün ölkənin əsas şəhər və rayonlarından biri olan Yevlaxa bu yaxınlarda 40 yaşı tamam olmuş



gənc və təcrübəli Anar Tağıyev rəhbərlik edir. O, bu şəhər-rayonun rəhbəri təyin olunanadək bir neçə mühüm vəzifələrdə çalışmışdır. Hamı onun qazandığı təcrübənin Yevlaxda daha zənginləşəcəyinə inanırdı. İndi Yevlax sakinlərinin ümumu fikri belədir ki, cənab Prezident bu rayona məhz xalqa xidmət etmək nümunəsini davam etdirən kadr göndərmişdir.

Qərəz, mart ayında Yevlaxla bağlı aldığımız bir neçə məlumat var idi ki, onları elə yazının əvvəlindəcə xatırlatmaq istəyirəm. Ayın 18-də şəhər icra hakimiyyətindən xəbər verdilər ki, Novruz bayramı ərəfəsində Yevlax şəhərində yeni 9 mərtəbəli yaşayış binası istifadəyə verilib. Əslində, bu qəbildən olan xəbərləri, az qala, hər gün eşidirik. Ona görə də, bu xəbər qeyri-adi sayıla bilməzdi. Ancaq həmin xəbəri daha aktual və mühüm edən bir məqam da var idi. Belə ki, həmkarlarımın “Ölkə başçısından Yevlax sakinlərinə bayram hədiyyəsi” adlandırdığı həmin bina şəhərin Nizami prospekti 19 ünvanında qəzalı vəziyyətdə olan 10 ədəd barak binalarda yaşayan



sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa edilmişdir.

Bildirilirdi ki, dövlət başçısının müvafiq sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılan vəsait hesabına Yevlax şəhəri, Heydər Əliyev prospekti 11 ünvandakı 0,5 hektar sahədə 9 mərtəbəli yeni yaşayış binası inşa edilib. 42 ailənin yerləşdiriləcəyi binada olan 1, 2 və 3 otaqlı mənzillər tam təmirlidir və binanın həyətində müvafiq abadlıq işləri aparılıb. Maraqlıdır ki, sakinlərin yeni binaya köçürülməsinə kömək məqsədi ilə Yevlax Şəhər İcra Hakimiyyəti tərəfindən kommunal işçilər ayrılıb, digər işlər görülüb.

Yeni binada mənzil alan sakinlər Novruz bayramı ərəfəsində bu sevinci onlara yaşadan Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

Qeyd etmək istədiyim ikinci məqam yeni yaşıllıq zolaqlarının salınması ilə bağlıdır. Bu məsələnin coğrafi-relyef baxımından Yevlax üçün nə qədər vacib olduğunu söyləməyə ehtiyac yoxdur. Bayram günlərində respublikamızın hər yerində olduğu kimi, burada da yeni yaşıllıq zolaqlarının salınması və ətraf mühitin mühafizəsi istiqamətində işlər davam etdirilib. Şəhərin Heydər Əliyev prospektində, və digər küçələrində, Bakı–Ələt–Qazax–Gürcüstan sərhədi avtomobil yolunun rayon ərazisindən keçən hissəsinin kənarlarında ərazinin iqliminə uyğun yeni ağaclar əkilib, mövcud ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib. Həmçinin əsas magistral yol və prospektlərin kənarlarına ağac növləri ilə yanaşı , müxtəlif güllər və həmişəyaşıl kollar əkilib. Xüsusilə vurğulanmalıdır ki, şəhərdə yaşıllaşdırma işlərinin mövsüm ərzində davam etdiriləcəyi bildirilir.

Görülmüş işlərin tam miqyası barədə əhatəli məlumat almaq üçün şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyevlə görüşmək istədim. Məlum oldu ki, icra başçısı əhalinin qazla təmin olunmasını yaxşılaşdırmaq məqsədilə keçirilən növbəti tədbirdə iştirak etmək üçün Duzdağ qəsəbəsinə gedib. Belə ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, respublikanın hər yerində olduğu kimi, Yevlaxda da genişmiqyaslı abadlıq, quruculuq işləri aparılır. Həyata keçirilən dövlət əhəmiyyətli sosialyönümlü layihələrin sırasında kənd və qəsəbələrin qazlaşdırılması işləri də yer alıb.

Xatırladaq ki, rayonun 98 evdən ibarət olan Duzdağ qəsəbəsində sakinlərin müraciətlərinə baxılaraq, şəhər icra hakimiyyəti tərəfindən “Azəriqaz” İB qarşısında məsələ qaldırılmış, nəticədə qəsəbəyə qaz çəkilməsinə start verilmişdir. Tərtər Regional Qaz İstismar İdarəsinin Yevlax üzrə xidmət sahəsi tərəfindən qəsəbəyə qaz çəkilişi davam etdirilir. Artıq qəsəbəyə 594 metr uzunluğunda 57 millimetrlik metal borudan ibarət qaz xəttinin çəkilişi yekunlaşıb. Qəsəbə ərazisində yeni salınan yaşayış məhəllələrindəki evləri qazla təmin etmək üçün isə 612 metr uzunluğunda 32 millimetrlik metal borudan ibarət qaz xətti çəkilir. Eyni zamanda, evlərə qaz sayğaclarının qoyulması müvafiq sənədləşmə əsasında layihələndirilir.

Şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyev də həmin gün işlərin gedişini izləmək üçün qəsəbədə olub. Qəsəbə sakinləri ilə söhbət edərkən sakinlər onların məişət rahatlığının təmin edilməsinə stimul verən bu diqqət və qayğıya görə möhtərəm Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq duyğularını ifadə ediblər.

Anar müəllimlə görüşüb söhbət etdik və bu sadə insan rayonun müasir inkişafının əsas istiqamətlərini yada saldı. Fəxrlə vurğuladı ki, Yevlaxda Heydər Əliyev Mərkəzi inşa edilib və ulu öndərin abidəsi ucaldılıb, ümummilli liderin adını daşıyan xiyaban salınıb, Xaldan kəndində Heydər Parkı yaradılıb, ulu öndərin büstü qoyulub.

Xatırladaq ki, Yevlaxın bu günü, həqiqətən, Molla Pənah Vaqifin “Hayıf ki, yoxdur” şeirində dediyi kimi deyil. Son illər burada Gənclər evi, 180 çarpayılıq Mərkəzi Rayon Xəstəxanası, Bayraq meydanı, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün ümumilikdə 117 mənzilli 5 yaşayış binası, və 20 ədəd fərdi yaşayış evləri, 25 çarpayılıq Regional vərəm dispanseri, 25 yerlik Uşaq xəstəxanası, Əlillərin Reabilitasiya Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhdud Fiziki İmkanlı İnsanlar üçün Regional İnformasiya Mərkəzi, elektron kitabxana, məcburi köçkünlər üçün 615 mənzildən ibarət 10 ədəd yaşayış binası və 440 şagird yerlik məktəb binası, XDMX regional şöbəsinin şəxsi heyəti üçün yaşayış binası, Tarix-diyarşünaslıq muzeyi,17500 kvadratmetr sahəyə malik olan Avtovağzal kompleksi, hava limanı, YAP rayon təşkilatı və regional televiziya üçün yeni binalar tikilib.

Ona görə də əlavə edirəm ki, son illər burada İqtisadiyyat Nazirliyinin Aran Regional İnkişaf Bölməsinin, Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzinin, Yevlax bələdiyyəsinin, şəhər təhsil şöbəsinin, Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Məşğulluq Mərkəzinin, maliyyə idarəsinin, Mərkəzi Bankın Yevlax ehtiyat mərkəzinin, Beynəlxalq Bank ASC-nin Yevlax filialının, Bank Respublika ASC-nin Yevlax filialının, Şahmat Məktəbinin və Rayon Kənd Təsərrüfatı İdarəsinin 11 saylı Vergilər Departamentinin, Avtovağzalın inzibati binaları, həkim məntəqələri, poçt binaları, park və bulvarlar, 6000 yerlik şəhər stadionu, Xalq teatrı binası tikilib, Kür çayı sahilində “Bulvar” salınıb, kəndlərdə 32 ədəd modul tipli sutəmizləyici qurğu quraşdırılıb. Bu sadalananların miqyasına





baxanda Yevlaxı “kiçik Azərbaycan” adlandırmaq istədim.

Ancaq Anar müəllim yada salmasa da, mən qeyd etməliyəm ki, 2019-cu ilin sonlarından rayonda abadlıq quruculuq işlərinin yeni mərhələsinə start verilib. Yuxarıda qeyd etdiyimiz kimi, Nizami prospekti 19 ünvanında qəzalı evlərdə yaşayan ailələrin mənzil komunal şəraitlərinin yaxşılaşdırılması məqsədilə mükəmməl bir layihə icra olunub. Şəhərin əsas küçələrindən olan Füzuli və Kamil Sabitov küçələrində işıqlandırma işləri başa çatdırılıb. Xaldan–Zaqatala avtomobil yolundan ayrılan – 6 kəndin 7500 nəfər əhalisinə xidmət edəcək Xaldan–Ərəş–Meyvəli kəndlərarası avtomobil yolu əsaslı təmir olunub. Qaroğlan və Quşçu kəndlərinin giriş və kəndarası avtomobil yollarının əsaslı təmirinə başlanılıb. Şəhərin Şadlinski küçəsində əsaslı təmir və asfaltlanma işləri aparılıb. Heydər Əliyev və Nizami prospektlərində, Dəmir you meydanında işıqlandırma sistemi yenidən qurulub. Bakı–Ələt–Gürcüstan avtomobil yolunun şəhərin daxilindən keçən hissəsinin işıqlandırma sistemi bərpa olunub, transformator məntəqəsi quraşdırılıb...

Başçı xüsusilə vurğuladı ki, ölkə rəhbərinin qeyd etdiyi kimi, bütün şəhərlərdə parklar, xiyabanlar, gəzinti yerləri yaradılır. Nəticədə həm şəhərlər gözəlləşir, həm də insanların asudə vaxtlarını səmərəli keçirmək üçün gözəl imkanlar yaranır. Bu baxımından yevlaxlıların sevimli istirahət və gəzinti yerinə çevrilmiş Dədə Qorqud parkının yenidən qurulması və genişləndirilməsi işləri aparaq əhalinin istirahətini təmin edən infrastruktur qurulub. Orada yeni uşaq əyləncə və sağlamlıq qurğularıyla yanaşı müasir işıqlandırma sistemi quraşdırılıb. Ərazidə velosiped sürmək məqsədilə dairəvi beton yol çəkilib, ətraf tamamilə ağac və gül kolları ilə bəzədilib . Layihə əsasında tikilən parkın ətrafındakı yaşayış binalarının və obyektlərin fasad və interyeri müasir üslubda yenidən qurulub.

Dövlət proqramı çərçəvəsində Təhsil Nazirliyi tərəfindən Qoyunbinəsi kəndində yeni 432 şağird yerlik tam orta məktəb binasının tikintisinə başlanılıb və obyektin bu aprel ayında istifadəyə verilməsi gözlənilir. Bu il keçid obyektləri olaraq şəhər 5 nömrəli 960 şagir yerlik məktəb binasının tikintisi gündəmdədir.

Bütün bunlarla yanaşı, zamanın tələb etdiyi digər məsələlər də diqqət mərkəzindədir. Belə ki, şəhər rəhbərliyi şəhid ailələrinin, İkinci Qarabağ müharibəsində iştirak edərək qazi olmuş yevlaxlıların bütün problemlərini diqqət mərkəzində saxlayır. Elə Novruz bayramı ərəfəsində də şəhər icra hakimiyyətinin və YAP Yevlax rayon təşkilatının məsul əməkdaşları Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət ediblər. Ziyarət zamanı şəhid ailələrinə bayram sovqatları çatdırılıb, ailələrin azyaşlı üzvlərinə bayram hədiyyələri verilib. Şəhid ailələrinin üzvləri arzu və təkliflərini bildirməklə yanaşı, onlara daim diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Yeri gəlmişkən, rayonun və ya şəhərin nüfuzunu artıran məsələlər təkcə sosial-iqtisadi inkişaf və ya tikinti-quruculuq işlərinin genişləndirilməsi deyil. Daxili sabitlik, əmin-amanlıq, vətəndaşların hüquq və azadlıqlarının lazım olan səviyyədə qorunması da reytinqi yüksəldən cəhətlərdəndir. Qətiyyətlə deyə bilərik ki, Yevlax bu baxımdan da öndə gedən rayonlarımızdandır. Belə ki, hüquq-mühafizə orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, onun profilaktikası və qanunçuluğun möhkəmləndirilməsi istiqamətində nəzərdə tutulan və ya tələb olunan bütün işlər görülür, bu məqsədlə kompleks əməli tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, son bir ildə qeydə alınmış cinayətlərin açılması 94 faiz təşkil edib. Bundan başqa, törədilən cinayət işlərinin sayı ildən-ilə azalır. Bu isə səmərəli profilaktikanın nəticəsidir.

... Hələ aprelin əvvəli olmasına baxmayaraq, Kür qırağında çölçəmən yaşıllaşıb, meyvə ağaclarının çoxu çiçəkləyib, söyüdlər isə yarpaqlanmağa da macal tapıblar. Yəni bahar Yevlaxa daha tez gəlir. Bu şəhərin, bu rayonun ictimaisiyasi həyatında da mükəmməl bir müasirləşmə, yeniləşmə, belə demək mümkünsə, insani bahar müşahidə olunur. Bunu isə çiçəklənən Azərbaycanın bir parçası adlandırmaq olar.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***